# 20 nömrəli məktəb-liseyin uğur salnaməsi

❒ ***Son illər Azərbaycan təhsilində baş verən müsbət dəyişikliklər bütün cəmiyyət tərəfindən mübahisəsiz qəbul edilir. Bu inkişafın canlı modeli, bariz nümunəsi kimi 20 nömrəli məktəb-liseyin qazandığı uğurlara, imza atdığı ilklərə nəzər salmaq kifayətdir.***




20 nömrəli məktəb-liseydə yaradılan təhsil mühiti müəllim və şagird kollektivinin yüksək uğurlar qazanmasına zəmin yaradır. Təsadüfi deyil ki, kollektiv bu illər ərzində əsl uğur salnaməsi yazıb. Fənn olimpiadalarında, respublika və beynəlxalq miqyaslı yarışlarda, müxtəlif tədbirlərdə məktəbin yetirmələri yüksək nailiyyətlər qazanıblar. Ümumiyyətlə, hər bir ümumi təhsil müəssisəsi özünün ənənələri, təhsildə və təlimdə əldə etdiyi nailiyyətləri ilə iz qoymalıdır. Bu baxımdan Səadət Veysovanın rəhbərlik etdiyi məktəb özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edir. Səadət müəllimə bütün həyatını Azərbaycan təhsilinə sərf edib. Sadə müəllimlikdən başlayaraq məsul vəzifələrə qədər yüksəlib. Müəllim adının ucalığını qoruyub, öz əməlləri ilə bunu sübut edib. Bu gün ölkəmizdə sayılıb-seçilən neçə-neçə görkəmli ellm, dövlət xadiminin, alimin uğur sələnaməsində onun imzası, əməyi var. Təsadüfi deyil ki, məktəb təlim və təhsildə qazandığı uğurları ilə ölkədə nümunəvi təhsil müəssisələrindən biri sayılır.

Uzun illərdir ki, məktəbdə coğrafiya fənnini tədris edən Validə Əhmədova bildirir ki, bu gün 20 nömrəli məktəb-lisey özünün intibah, çiçəklənmə dövrünü yaşayır. "Çəkinmədən deyə bilərəm ki, məktəbimizin tarixində indiyə qədər belə inkişaf, tərəqqi müşahidə olunmayıb. Qazandığımız uğurları sadalamaqla bitməz. Təbii ki, bütün bunlar bütün kollektivin və bizə ideal tədris şəraiti yaradan Səadət xanımın gərgin əməyinin nəticəsidir".

Məktəbdə kimya fənnini tədris edən əməkdar müəllim Fatma Mustafazadə deyir ki, liseydə fənn kabinələrinin fəaliyyətinə xüsusi diqqət yetirilir. "Kimya kabinələri bütün zəruri inventarlarla təmin edilib. Hər bir dərs şagirdlər üçün zəngin təcrübəyə, praktiki məşğələyə çevrilir". Əməkdar müəllim Yaqut Xanlarova qazanılan uğurlarda rəqabət mühitinin yaradılmasının çox böyük rol oynadığını söyləyir. “İstər müəllimlər, istərsə də şagirdlər arasında da sağlam rəqabət hökm sürür. Hamı çalışır ki, daha böyük uğurlara imza atsın. Təsadüfi deyil ki, 20 nömrəli məktəb-lisey təkcə paytaxtda deyil,bütün respublikada qabaqcıl elm ocağı kimi tanınır".

Valideynlər də məktəb-liseyin fəaliyyətindən



ağızdolusu danışırlar. İki övladı 20 nömrəli məktəb-liseydə təhsil alan Günay Atamova deyir ki, məktəbdə hər şey yalnız şagirdlərin güclü təhsil almasına xidmət edir. "Mənə ən xoş gələn odur ki, məktəbin direktoru Səadət müəllimənin əməyi nəticəsində şagirdlər və müəllimlər arasında qarşılıqlı inam formalaşıb. Öyrədənlər və öyrənənlərin amalı birdir-elmlərin sirlərinə dərindən yiyələnmək. Direktor valideyn-məktəb münasibətlərinin yüksək səviyyədə qurulmasına nail olub. Məhz bu qarşılıqlı əlaqələr nəticəsində şagirdlərin təlim nailiyyətləri ildən-ilə yüksəlir".

Övladı məktəbin 8-ci sinfində təhsil alan Rəsmiyyə Qədirova bizimlə söhbət edərkən bildirdi ki, Səadət müəllimə şagirdlər üçün həm mehriban ana, həm də tələbkar müəllimdir. "Məhz bu iki amilin vəhdəti məktəbdə nizam-intizamı, təhsilin keyfiyyətini yüksək səviyyəyə qaldırıb. Bir valideyn olaraq övladımın taleyi üçün narahat deyiləm. Bilirəm ki, onun təhsil və tərbiyəsi etibarlı əllərdədir. Səadət müəllimə burada elə mühit yaradıb ki, şagirdlər arasında bəhsləşmə yaransın. Daha yaxşı oxumaq üçün, sanki, bir yarış gedir. Məktəb bilik ocağına çevrilib".

Apardığımız müşahidələr bir daha sübut edir ki, 20 nömrəli məktəb-lisey təhsilimizin flaqmanlarından biri olaraq hələ çox uğurlara imza atacaq. Bu şərəfli yolda məktəbin kollektivinə uğurlar arzulayırıq.

Xalq qəzeti.- 2020.- 31 yanvar.- S.6.